

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (21.696)

18 fevral 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 53-cü Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 16-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gedib.

* * *

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti Kolinda Qrabar-Kitaroviçin görüşü olub.

* * *

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin uğurla inkişaf edərək müxtəlif sahələri əhatə etdiyi, ikitərəfli münasibətlərimizin daha da genişlənməsi üçün imkanların olduğu bildirilib. Pambıqçılıq, sement istehsalı, səhiyyə, nəqliyyat sahələrində əlaqələrin inkişafı baxımından yaxşı potensialın olduğu vurğulanıb. Azərbaycanın brendi olan "ASAN xidmət"in təcrübəsinin Əfqanıstanda yayılması məsələləri müzakirə edilib. Münasibətlərimizin inkişafında qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi vurğulanıb.



## Muxtar respublikada qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri intensivləşdirilib



***Bu gün Naxçıvan Muxtar Respublikası əsl çiçəklənmə dövrünü yaşayır. Qədim diyar ötən hər il daha sürətlə inkişaf edir, müxtəlif sahələrdə qazanılan uğurlarla, iqtisadiyyatda, sosial, mədəni həyatdakı yeniliklərlə diqqət mərkəzinə çevrilir.***

Muxtar respublika özünü ərzaq və enerji təhlükəsizliyi ilə tam təmin etməklə yanaşı, bu gün həm də ixracatçı məkan kimi tanınır. Bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edən Naxçıvanın 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan olunması uzun illər blokada şəraitində inkişaf etməyin, tərəqqi yolunda olmağın nümunəsini dünyaya nümayiş etdirir. Bu inkişaf, bu dirçəliş, bu tərəqqi insanların rifah halının yüksəldilməsilə bərabər, qədim diyarımıza səfər edən xarici ölkə vətəndaşlarının sayını da artırır.

2016-cı il ərzində muxtar respublikaya 403 mindən çox turist gəlib. Hazırda Naxçıvan kifayət qədər turisti qarşılamaq və lazımi səviyyədə xidmət göstərmək imkanına malikdir. Sosial-iqtisadi inkişafın, yaradılan şəraitin nəticəsidir ki, vaxtilə muxtar respublikaya turist kimi gələn əcnəbilər indi artıq yaşamaq və işləmək üçün gəlirlər.

Bütün bunlar nəzərə alınaraq muxtar respublika ərazisində miqrasiya siyasətini həyata keçirən, bu sahədə dövlət nəzarətini gücləndirən Dövlət Miqrasiya Xidməti ölkəyə muxtar respublika sərhədlərindən müxtəlif məqsədlərlə daxil olan əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə işin təşkilinə diqqəti artırıb. Daim dövlət qayğısı ilə əhatə olunan və miqrasiya proseslərinin idarə edilməsi, həmçinin tənzimlənməsində innovativ metodların tətbiqi, şəffaflığın təmin edilməsi prinsiplərini prioritet kimi müəyyən edən Dövlət Miqrasiya Xidməti muxtar respublikamıza gələn hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin, eləcə də turistlərin ölkədə olma və yaşama qaydalarına əməl etmələrinin təmin olunması, onlara beynəlxalq standartlara cavab verən xidmətlərin göstərilməsi işində daim operativlik göstərir, işini müasir tələblər səviyyəsində həyata keçirir.

Fəaliyyət göstərdiyi qısa müddətdə xidmət yaxşı təşkilatlanıb, miqrasiya proseslərinin tənzimlənməsinə fəal təsir etmək imkanı əldə edib. Azərbaycan Respublikasında ilk dəfə olaraq sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələrinin fəaliyyəti Naxçıvan Muxtar Respublikasında həyata keçirilməyə başlanıb. Bununla yanaşı, sərhəd-buraxılış məntəqələrində həm giriş, həm də çıxış istiqamətində fəaliyyət göstərən miqrasiya bölmələrində əcnəbilərin miqrasiya uçotunun aparılması üçün Vahid Miqrasiya Məlumat Sistemi yaradılıb. Əsasən giriş istiqamətində fəaliyyət göstərən miqrasiya bölmələrində quraşdırılmış sistem vasitəsilə muxtar respublikaya müvəqqəti və daimi yaşamaq, iş icazəsi almaq və digər məqsədlərlə daxil olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ilkin qeydiyyatı mərhələsi olan – olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilib. 2016-cı il ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən 10 min 324 əcnəbi və vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınıb ki, bunun 2 min 777-si sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələri tərəfindən həyata keçirilib.

Sərhəd-buraxılış məntəqələrinin çıxış istiqamətində fəaliyyət göstərən miqrasiya bölmələri isə miqrasiya sahəsində dövlət nəzarətinin həyata keçirilməsində böyük rol oynayır. Belə ki, fəaliyyət göstərdiyi illər ərzində bölmələr tərəfindən qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri intensivləşdirilib, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında qeyri-qanuni miqrasiyası aşkar edilərək qarşısı alınıb.

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış Çərçivə Sazişinə uyğun olaraq ötən ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayıb. Qeyd edək ki, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması gediş-gəlişi artıracaq, turizm və humanitar sahədə əməkdaşlığı genişlənəcəkdir. Bu isə miqrasiya proseslərinin intensivləşməsinə səbəb olacaq.

Naxçıvan və Culfa sərnişin vağzalı binalarında miqrasiya xidmətlərinin göstərilməsi məqsədilə Dövlət Miqrasiya Xidməti üçün işçi yerləri yaradılıb, eyni zamanda ölkəyə daxil olan əcnəbilərin qeydiyyata alınması məqsədilə Vahid Miqrasiya Məlumat Sisteminin fəaliyyəti təmin olunub. Bu istiqamətdə hərəkət edən miqrantların miqrasiya sahəsi üzrə maarifləndirilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrində yerləşdirilmiş monitorlarda əcnəbilərin ölkəyə gəldiyi vaxtdan ilkin qeydiyyat proseduru – olduğu yer üzrə qeydiyyatla bağlı məlumatlar 3 dildə (Azərbaycan, rus və ingilis) hazırlanaraq monitorlara yerləşdirilib. Eyni zamanda miqrasiya sahəsinə dair xidmət növləri üzrə məlumatlar 3 dildə broşür şəklində də hazırlanaraq dəmir yolu stansiyalarına verilib.

Bu gün Dövlət Miqrasiya Xidməti fəaliyyətinin təkmilləşdirilməsi işini davam etdirir, muxtar respublikada iqtisadi təhlükəsizliyin, milli maraqların, eyni zamanda sabitliyin təmin olunması istiqamətində tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsində fəallıq göstərir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

## Naxçıvanda ömür uzunluğu göstəricisi artmışdır

Muxtar respublikada iqtisadi və sosial sahələrdə həyata keçirilən məqsədyönlü tədbirlər ümumi inkişafa təkan vermiş, istehsal və xidmət sahələri yaradılmış, yeni iş yerləri açılmış, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada sabitlik təmin edilmiş, əhalinin həyat və məişət şəraiti yaxşılaşmışdır. Bütün bunlar isə əhali artımına dinamik təsir göstərmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasında 1995-ci ilin sonuna nisbətən əhalinin sayı 31,6 faiz artaraq 1 yanvar 2016-cı il tarixə 444 min nəfərdən çox olmuşdur. Müqayisə olunan dövrdə 1 yaşadək uşaq ölümlərinin azalması da əhalinin dinamik artımına müsbət təsir göstərmişdir. Əgər 1995-ci ildə muxtar respublikada hər 1000 diri doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 20-dən artıq idisə, 2015-ci ildə bu göstərici 1,5 promilli olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikasında 1 yaşadək ölən uşaqların sayı Fransa, Almaniya, Avstriya, Belçika, Finlandiya, Yunanıstan, İsveçrə, Niderland, Bolqarıstan, Macarıstan, Rumıniya, Slovakiya, Estoniya, Latviya, Litva, Xorvatiya, Bosniya və Herseqovina, Monteneqro kimi ölkələrdəki müvafiq göstəricidən azdır.

Naxçıvanda əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı, yeni yaşıllıq zolaqlarının salınması, ekoloji təmiz içməli su təminatı və digər bu kimi tədbirlər mühüm demoqrafik göstərici olan ömür uzunluğunun artımına ciddi təkan verir. Belə ki, 1995-ci ildə muxtar respublikada ömür uzunluğu 69 yaş, o cümlədən kişilərdə 65,3 yaş, qadınlarda isə 72,5 yaş təşkil edirdisə, 2015-ci ilin yekun nəticələrinə görə bu göstərici 78,2 yaş, o cümlədən kişilər üçün 76,2 yaş, qadınlar üçün isə 80,2 yaş səviyyəsində olmuşdur. Naxçıvan Muxtar Respublikasında qeydə alınmış ömür uzunluğu göstəricisi Bolqarıstan, Macarıstan, Rumıniya, Slovakiya, Estoniya, Latviya, Litva, Xorvatiya, Bosniya və Herseqovina, Monteneqro kimi Avropa ölkələrində qeydə alınan göstəricidən artıqdır. Son 15 ilin statistikası göstərir ki, Avropa ölkələri üzrə ömür uzunluğu orta hesabla 3 yaş artdığı halda, Naxçıvan Muxtar Respublikasında bu göstərici 7,2 olmuşdur. Qeydə alınmış bu göstəricilər muxtar respublikada insan amilinə verilən dəyərin bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Plastik tara istehsalı sahəsi yaradılacaq

***Son illər Naxçıvanda sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülüb, sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılıb. Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə güzəştli kreditlər verilir, sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələri maliyyələşdirilir.***




Babək rayonunun Nehrəm kəndindəki "Xalaoğlu" kəndli-fermer təsərrüfatı fəaliyyətini verilən güzəştli kredit hesabına genişləndirir. Bu il təsərrüfatda plastik tara istehsalı sahəsi də yaradılacaq.

Naxçıvan şəhərində bir neçə ildir ki, karton tara istehsalı müəssisəsi fəaliyyət göstərir. Bu sahədə yeni müəssisələrin yaradılması da dəstəklənir. Təsadüfi deyil ki, fevralın 11-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 6 sahibkara güzəştli kreditlərin çekləri təqdim edilib. Həmin güzəştli kredit alanlardan biri də "Xalaoğlu" kəndli-fermer təsərrüfatının sahibkarı Rafiq Əliyevdir. Sahibkar bildirir ki, götürdüyü kredit plastik tara istehsalı sahəsinin yaradılmasına sərf ediləcək: "Təsərrüfatda istehsal olunan məhsulların qablaşdırılması üçün xarici ölkələrdən plastik taralar alıram. Buna da çox vəsait ödəyirəm. Lakin mənə verilən 60 min manat kreditdən istifadə edərək plastik tara istehsalı sahəsi yaradacağıq. Yazda bunun üçün tikintiyə başlayacağıq. Yeni istehsal sahəsinin yaradılması üçün avadanlıqların sifarişi də verilib. Beləliklə də həm özümüzün tələbatını ödəyəcəyik, həm də verilən sifarişləri yerinə yetirəcəyik".

Qeyd edək ki, müəssisədə qatıq, ayran, kərə yağı, dovğa və quş əti istehsal olunur. Eyni zamanda təsərrüfatda 120 baş qaramal saxlanılır. Süd məhsullarının istehsalı üçün təsərrüfat həm öz fermasından götürülən süddən, həm də ayrı-ayrı kəndlərdən alınan süddən istifadə edir.

Ötən il burada 118 ton quş əti istehsal olunub. Hazırda isə 20 min baş quş saxlanılır.

**Xəbərlər şöbəsi**



# Rayonların sosial-iqtisadi həyatı



***Ən böyük tarixi nailiyyətimiz olan muxtariyyətimizin 93 ili arxada qaldı. Bunun 25 ili müstəqilliyimiz dövrünə təsadüf edir. Müstəqillik dövründə qərinələrə bərabər yol keçilib, muxtar respublikamız inkişafa qovuşub. Muxtar diyarın bütün bölgələri bu gün müasir görkəm alıb. Şahbuz rayonu da öz simasını əsaslı surətdə dəyişən bölgələrimizdən biridir.***

## İllərin uğur estafeti davam edir






Şahbuz şəhər sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyev deyir ki, görülən işlər həyatımızın ayrılmaz tərkib hissəsinə çevrildiyindən və yeniliklərə gözlərimiz qarşısında nail olunduğundan onların fərqinə çox da vara bilmirik. Doğma diyardan bir-iki ay ayrılan insan yenidən buraya qayıdanda gördükləri onu təəccübləndirir və düşünəndə ki, bunlar neçə illərdir, davamlı xarakter alıb, onda yaşadığın yurd yerinin belə inkişafı bir daha qəlbini sevinc hissləri ilə doldurur. Ulu Tanrının səxavətini əsirgəmədiyi Şahbuz rayonu da bu gün müasir və abad görkəmi ilə göz oxşayır. Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənubuna, Zəngəzur silsiləsinin qərb yamaclarına sığınan rayonun təbiət abidələri Şahbuza bir məğrurluq və əzəmət bəxş edib. Şəninə nəğmələr qoşulan Salvartı dağı, Şapur qalası, Üçqardaş, Qonaqgörməz, Ağdaban dağları min illərdir, bu diyarı dövrəsinə alıb.

Rayonun son illərdə keçdiyi sürətli inkişaf yolu on illərə bərabərdir. Bu barədə danışmazdan əvvəl qədim yurd yerinin tarixi ilə bağlı Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbin tarix müəllimi Rauf Bağırovun verdiyi məlumatı oxuculara çatdıraq. Mənbələrdə XVI əsrdə burada 27 kəndi, Oyuqlucaqaya, Bazaryurd, Dərəbaş gədiyi, Qaçdaş, Nərkeçi və Armudlu yaylaqlarını əhatə edən Dərəşahbuz nahiyəsinin yaradılması, XIX əsrin 40-cı illərinə qədər fəaliyyət göstərməsi barədə məlumatlar yer alıb. 1925-ci ildə Naxçıvan inzibati ərazi vahidində Nərimanov rayonu adlandırılıb (30 kəndi əhatə edib), 1930-cu ildən “Şahbuz” adı bərpa olunub. Rayon 1963-cü ildə ləğv edilərək Naxçıvan (indiki Babək) rayonuna birləşdirilib, 1965-ci ildə yenidən təşkil olunub. Şahbuz qəsəbəsinə 2007-ci ildə şəhər statusu verilib.

* * *

Şahbuz rayonunun 2016-cı ildə nail olduğu sosial-iqtisadi inkişafla bağlı hazırlayacağım yazı üçün qeydlərimə baxanda bir anlığa fikrimdən bir sual keçdi: inkişafın təməlində duran amillər hansılardır? Hiss etdim ki, ilk olaraq bu suallara cavab tapmasam, yazı istədiyim kimi alınmayacaq...

... Gələcəyə nikbin baxış, sabaha məsuliyyət və cavabdehlik hissi, əzmkarlıq və quruculuq iradəsi, düzgün seçilən yol – bu gün Şahbuzun müasir rayona çevrilməsində bunların başlıca amillər olduğu qənaətinə gəlsək, səhv etmərik. Bir qədər geriyə qayıdaq, yaxın tarixi vərəqləyək. Bir vaxtlar bu yurd yeri gözdənuzaq, könüldəniraq bir ünvan olub. Bunu orta və yaşlı nəsil yaxşı xatırlayır. Muxtar respublikada ilk quruculuq tədbirlərinə start veriləndə bu bölgə digər yaşayış məntəqələri ilə müqayisədə, sözün həqiqi mənasında, miskin bir görkəmdə idi. Rayonun füsunkar mənzərələri, təbiət abidələri də bu görkəmi ört-basdır edə bilmirdi.

Ötən illər ərzində Şahbuz sürətli inkişaf yolu keçib. Bölgədə ilk quruculuq tədbirlərinə rayon mərkəzi ilə paralel olaraq ucqar dağ və sərhəd kəndlərindən başlanılıb. Dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşən belə yaşayış məntəqələrinə gedən yolların əvvəlki vəziyyətini bu gün təsvir etsək, bəlkə də, çoxları inanmaz. Kəndlərdə həyata keçirilən kompleks quruculuq tədbirləri həmin ünvanlara çox böyük həcmdə tikinti materialları aparılmasını tələb edirdi. Ancaq həmin yollar elə bir vəziyyətdə idi ki, quruculuq işlərini yubadırdı. Elə o vaxt yolların təmiri, yenidən qurulması üstün istiqamət kimi qəbul edildiyindən çətinliklər aradan qaldırıldı.

* * *

Ötən 2016-cı ildə də davam etdirilən quruculuq tədbirləri müxtəlif sahələri əhatə edib. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu dövrdə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşunun həcmi 1,2 faiz artaraq 29 milyon 768,9 min manat olub. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 1,8 faiz artaraq 26 milyon 306 min manata çatıb. Bəhs olunan dövrdə Daylaqlıda tam orta məktəbin binası, kənd və xidmət mərkəzləri, Kiçikobada kənd və xidmət mərkəzləri istifadəyə verilib, hər iki kənddə kənddaxili yollara asfalt örtük salınıb.

Qeyd edək ki, Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün inşa edilən inzibati binada, eləcə də Kolanı kəndində 360 şagird yerlik məktəb binasında tikinti işləri başa çatdırılıb. Bundan başqa, Kükü, Güney Qışlaq, Şahbuzkənd, Keçili kəndlərinin yollarında təmir işləri aparılıb. Daylaqlı kəndində 3,5 kilometr, Kiçikoba kəndində isə 3,6 kilometr məsafədə kənddaxili yollara asfalt salınıb. Rayonun sosial-iqtisadi inkişafı bölgədə fərdi yaşayış evlərinin artmasına səbəb olur. Bəhs olunan dövrdə əhalinin şəxsi vəsaitləri hesabına 16 yeni fərdi ev tikilib.

Ötən il rayonda həyata keçirilən tikinti-quruculuq və digər tədbirlərə Daylaqlı kənd sakini Valeh İbrahimov münasibətini belə bildirir:

– Şahbuz rayonu sovet dönəmində baxımsız bir yer olub. O dövrdə bölgənin füsunkar gözəlliyi, suyu, havası, təbii nemətləri rayona ölkəmizin digər bölgələrindən də qonaqlar cəlb etsə də, burada qonaq qabağına çıxarmalı bir iş görülmürdü. Rayonda bu gün gördüklərimizin hamısı son illərdə tikilib, yollar, körpülər salınıb. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün, demək olar ki, bütün mümkün tədbirlər həyata keçirilib. Bildiyimiz kimi, Şahbuz dağlıq rayondur. Kənd yaşayış məntəqələrinin böyük əksəriyyəti belə ərazilərdə yerləşir. Lakin bu çətinliyə baxmayaraq, quruculuq tədbirlərinə məhz həmin ünvanlardan başlanıldı. Keçən il isə belə kompleks tikinti işləri Daylaqlıda da aparıldı. Bu gün yaşadığım həmin kənd qəsəbə timsallıdır. Bizə göstərilən belə qayğıya görə bir ağsaqqal və ziyalı kimi dövlətimizə minnətdarlığımı bildirirəm.

* * *

Rayon İcra Hakimiyyətinin əməkdaşı İmran Məmişov Şahbuzda iqtisadiyyatın əsasını təşkil edən və əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafı məqsədilə əhalinin şəxsi mülkiyyətində olan torpaqlardan səmərəli istifadə edilməsinə göstərilən dövlət qayğısı barədə danışır. Deyir ki, belə qayğı sayəsində aqrar sahəyə maraq xeyli artıb, 1337 hektar sahədə taxıl, 242 hektar sahədə paxlalı, 7 hektar sahədə qarğıdalı, 9 hektar sahədə günəbaxan, 463 hektar sahədə kartof, 286 hektar sahədə tərəvəz, 11 hektar sahədə bostan bitkilərinin əkini keçirilib. Rayonda 4570 ton dənli və dənli-paxlalılar, 29 ton qarğıdalı, 20,5 ton günəbaxan, 8084 ton kartof, 5004 ton tərəvəz, 138 ton bostan məhsulları, 8076,4 ton meyvə, 176,2 ton üzüm istehsal edilib. İl ərzində 9,6 hektar sahədə yeni bağ salınıb, 1,4 hektarda bərpa tədbirləri həyata keçirilib, 10550 ədəd meyvə, 1800 ədəd meşə, 588 ədəd bəzək tingləri, Şahbuz şəhərində Heydər Əliyev prospekti boyunca 1218 ədəd gül kolu əkilib.

* * *

Rayonda həmsöhbət olduğum müəllim Xanlar Səfərəliyev Şahbuzun bu günündən qürur duyduğunu bildirir: “Bu günlərin qədrini bilmək lazımdır. 20 il əvvəli gözləriniz önünə gətirin. Saatlarla işıqsız qalmışıq, uzun illər evlərimizdə qaz olmayıb. Artıq bu problemlər həllini tapıb. Məktəblərimiz, səhiyyə ocaqlarımız yenidir. Yollarımız müasir standartlar səviyyəsindədir. İnsanların həyata baxışları dəyişib, qurub-yaratmaq əzmi yüksəlib. Bu gün bir qarış torpağı əkilməmiş qoymayan kənd adamları belə tədbirlərdən xeyli razılıq edir, məhsul bolluğu yaradılmasına çalışır, gün-güzəranlarını yaxşılaşdırırlar. Bu, sosial-iqtisadi inkişafın ən bariz göstəricisidir və Şahbuz rayonu da bu inkişafdan yetərincə bəhrələnib, rayon sakinləri ötən ili uğurla başa vuraraq cari ildə daha böyük nailiyyətlər qazanmaq əzmi ilə çalışırlar”.

## Yeni məktəb binası pedaqoji kollektivin məsuliyyətini daha da artırıb

*Fevral ayının 15-də muxtar respublikanın daha bir yaşayış məntəqəsində müasir tələblərə cavab verən yeni məktəb binasının sevinci yaşanıb. Belə ki, Şahbuz rayonunun Kolanı kənd tam orta məktəbi üçün inşa olunan bina istifadəyə verilib. Biz də o sevincli anlarında məktəbin müəllimləri ilə görüşdük, onları təbrik edib gələcək fəaliyyətlərində uğurlar arzuladıq, təəssüratlarını öyrəndik.*

Məktəbin direktoru Rəqsanə Əsgərova deyir ki, 3 mərtəbədən ibarət olan 360 şagird yerlik binanın istifadəmizə verilməsi təhsilin inkişafına, bu sahədə çalışanlara dövlətimizin növbəti qayğısıdır. Təbii ki, belə qayğı pedaqoji kollektivin məsuliyyətini daha da artırıb.

Həmsöhbətim onu da diqqətə çatdırır ki, ötən dərs ilində məktəbi bitirən 20 məzunun 12-si ali məktəblərə qəbul olunmaq üçün sənəd təqdim etmişdi. Abituriyentlərdən 6 nəfəri tələbə adını qazanıb ki, onlardan 1 nəfəri 600-dən çox bal toplayıb. Göründüyü kimi, bu nəticəni yüksək saymaq olmaz. Kollektiv çalışacaq 2016/2017-ci tədris ilinin yekunları elə olsun ki, bununla bizə göstərilən qayğı və etimada cavab verək.

“Tərəqqi” medalına layiq görülmüş tarix müəllimi Məhərrəm Əhmədov söhbətə qoşulur:

– Ulu öndər Heydər Əliyevin müdrik bir kəlamını tez-tez şagirdlərimə xatırladıram: ***“Həyat böyük prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır”.*** Bu gün fəxrlə demək olar ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda belə təhsilə malik gənclər yetişdirmək heç də çətin deyil. Çünki təhsilin inkişafı prioritet vəzifələr sırasındadır. Bunun üçün həyata keçirilən tədbirlər hamımızı sevindirir. Kolanı kənd tam orta məktəbi üçün inşa edilən yeni bina da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Ucqar dağ kəndi üçün belə məktəb binası tikilməsi pedaqoji kollektivimizi yaxşı işləməyə, savadlı və vətənpərvər gənclər yetişdirməyə ruhlandırıb. Belə yüksək qayğıya biz ancaq bununla cavab verə bilərik.

Məktəbin coğrafiya müəllimi Şirin Orucov da öz razılığını bildirir:

– Kəndimizdə bundan əvvəl mövcud olan məktəb binası bugünkü tələblərə cavab vermirdi. Bu isə tədrisin səviyyəsinə öz təsirini göstərirdi. Bu vəziyyətdən biz müəllimlər də, valideynlər də daxilən narahatçılıq hissi keçirirdik. Artıq buna son qoyulub.



Bu gün fəaliyyət göstərdiyimiz təhsil ocağının binası rayon mərkəzlərindəki, paytaxt şəhərimiz Naxçıvandakı məktəblərdən seçilmir. Zəngin maddi-texniki bazamız, laboratoriyalarımız, kitabxanalarımız, kompüter və elektron lövhəli siniflərimiz imkan verir ki, yüksək nailiyyətlər qazanaq. Yaradılan belə şəraitdə heç bir müəllimin pis işləməyə, heç bir şagirdin pis oxumağa haqqı yoxdur. Kollektivimiz adından dövlətimizə minnətdarlıq edir, daha yaxşı işləməyə çalışacağımıza söz veririk.

Azərbaycan dili və ədəbiyyatı müəllimi Nərminə İbrahimova deyir ki, yaşadığımız dövr yeni texnologiyalar əsridir. Bu gün muxtar respublikanın ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində belə texnologiyalardan istifadə etmək imkanları yaradılıb. Sevinirik ki, digər təhsil ocaqlarında olduğu kimi, bizim məktəbdə də bu vacib məsələ öz həllini tapıb. Binanın açılış günündə Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyi ilə interaktiv əlaqə yaradıldı, 209 məktəbin şagirdləri “Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı” mövzusunda dərsi dinlədi. Yaşlı bir təhsil işçisi kimi demək istəyirəm ki, belə coğrafi mövqedə yerləşən bir kənddə informasiya texnologiyalarının tətbiq olunacağını düşünmək belə mümkün deyildi. Bu, reallıqdır, muxtar respublikanın sosial-iqtisadi inkişafının bəhrələridir; nəticə etibarilə intellektual səviyyəli gənclər yetişdirməyə yönələn dövlət siyasətidir. Bizə qalır ki, Ali Məclis Sədrinə minnətdarlığımızı bildirməklə qarşımıza qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün daha yaxşı işləyək.

Məktəbin tarix müəllimi Zakir Həsənov:

– Bu gün ölkəmiz müstəqildir, həyatın bütün sahələri bu qiymətli sərvətin bəhrələrini görür. Məktəbimiz üçün istifadəyə verilən bina da müstəqilliyin bəhrəsidir. Bir tarix müəllimi, bir ziyalı kimi qarşımızda duran vəzifələri yaxşı dərk edirəm. Bir vaxtlar təhrif olunmuş tariximizin araşdırılması, yeni nəşrlərin işıq üzü görməsi məni də ürəkdən sevindirir. Xüsusilə də “Naxçıvan tarixi” çoxcildliyinin nəşr edilərək istifadəmizə verilməsi tariximizin bugünkü məktəblilərə olduğu kimi öyrədilməsinə imkan verib. Kitabxanamızda tariximizlə bağlı digər nəşrlər də var. Çalışacağıq ki, qədim tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi yüksək səviyyədə şagirdlərə öyrətməklə bizə göstərilən etimadı doğruldaq.

Yeni məktəb binasının açılışında iştirak edən kənd sakinləri ilə də görüşdük. Onların da ürək sözlərini dinlədik. Kiminlə söhbət etdiksə, razılıqla danışdı, dövlətimizə Kolanıya göstərilən belə qayğı üçün minnətdarlığını bildirdi.

**Səhifəni hazırladı: Muxtar MƏMMƏDOV**

# XX yüzilliyin 20-ci illərində Naxçıvanın itirilmiş torpaqları

## *1929-cu il fevralın 18-də Naxçıvan Muxtar Respublikasının on kəndi beynəlxalq müqavilələrin şərtləri kobud şəkildə pozularaq Ermənistana verilib*

***Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq Azərbaycana köçürülən və XIX yüzillik boyu davam edən köçürmə prosesi nəticəsində sayları süni surətdə artırılan ermənilər tarixi torpaqlarımızda yerləşdirildikdən və möhkəmləndirildikdən, xüsusilə yüzilliyin sonlarında özlərinin bir sıra təşkilatlarını (Qnçaq, Daşnaksutyun, Erməni vətənpərvər ittifaqı) yaratdıqdan sonra ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyə başladılar. Ermənilərin ərazi iddialarında Azərbaycanın əzəli və əbədi torpaqları olan Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ bölgələri əsas yer tuturdu. Bu iddialarını, xüsusilə “böyük Ermənistan” xülyasını gerçəkləşdirmək üçün ermənilər XX yüzilliyin əvvəllərində fəaliyyətlərini daha da gücləndirdilər.***




Havadarlarının, xüsusilə iri dövlətlərin himayəsi ilə yaranmış hər bir əlverişli məqamdan məharətlə istifadə edən ermənilər I Dünya müharibəsində məğlubiyyətə uğrayan Rusiya imperiyasının dağılmasından sonra 1918-ci il mayın 28-də müstəqilliklərini elan etsələr də, heç bir əraziləri və paytaxtları yox idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkəmizə qarşı ərazi iddialarına son qoyulacağını güman edərək 1918-ci il mayın 29-da ətraf ərazilərlə birlikdə İrəvan şəhərini ermənilərə verdi. Onlar bağışlanan bu ərazilər hesabına 9,5 min kvadratkilometr ərazidə özlərinin daşnak hökumətlərini yaratdılar və bununla kifayətlənməyib ərazi iddialarını gerçəkləşdirmək üçün səylərini artırdılar. Bir sıra Azərbaycan torpaqlarını, xüsusilə Zəngəzuru işğal etdikdən, 1920-ci il noyabrın 29-da Ermənistan sovetləşdikdən sonra bolşeviklərin yardımı ilə ermənilər daha da fəallaşdılar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ heç bir əsas olmadan yenidən “mübahisəli ərazilər” elan olundu. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri, o cümlədən Nəriman Nərimanov bu siyasətin əleyhinə çıxsa da, hətta bununla əlaqədar Moskvaya teleqramlar göndərərək ciddi etirazını bildirsə də, bir nəticə əldə olunmadı. Əksinə, ərazi məsələlərinin birtərəfli, daşnak-bolşeviksayağı “həlli” nəticəsində 1920-ci il avqustun 10-da Rusiya ilə Ermənistan arasında imzalanan müvəqqəti sazişə əsasən Şərur-Dərələyəz qəzası qeyd-şərtsiz Ermənistana verildi. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi bolşeviklərin əli ilə rəsmiləşdirildi. 20 iyul 1921-ci ildə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradıldı.

XX əsrin 20-ci illərinin sonlarında ermənilər öz istəklərinin həyata keçirilməsi sahəsində daha bir addım atdılar. Bu məsələdə 1922-ci il martın 12-də yaradılan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası mühüm rol oynadı. Həmin vaxtlar Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının on kəndi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qarçıvan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi, başqa sözlə desək, 657 kvadratkilometr Azərbaycan ərazisi Ermənistana verildi. Bu zaman beynəlxalq hüquq normalarına məhəl qoyulmadı, Naxçıvanın ərazi bütövlüyünün qarantı olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars müqavilələrinin şərtləri kobud surətdə pozuldu.

1930-cu ildən sonra bütün müttəfiq respublikalarda olduğu kimi, Ermənistan SSR-də də yeni inzibati ərazi bölgüsü – rayonlar yaradılarkən həmin yaşayış məskənləri yerləşdiyi coğrafi mövqeyə görə yeni təşkil olunan rayonların tərkibinə verildi.

Ancaq ermənilər bununla kifayətlənmədi, bu kəndlərin adlarının dəyişdirilməsi sahəsində də işlər apardılar. Tarixi Qərbi Azərbaycan torpaqlarında, yəni indiki Ermənistan ərazisində ilk addəyişmə əməliyyatları İrəvan xanlığının 1828-ci ildə Rusiya ilə birləşdirilməsindən sonra çar hökuməti tərəfindən aparıldı. 1828-ci ildə İrəvanın adı Erivanla, 1837-ci ildə Kəvər Nor-Bayazidlə, 1840-cı ildə Gümrü Aleksandropolla əvəz olundu. Hətta yer adlarının dəyişdirilməsi məsələsi sovet hakimiyyəti illərində dövlət siyasəti səviyyəsinə qaldırıldı, bu haqda Ermənistan SSR Ali Soveti rəyasət heyətinin müvafiq qərarları verildi. Addəyişmə əməliyyatı Ermənistan SSR Ali Sovetinin fərmanı ilə ilk dəfə 1935-ci ildə həyata keçirildi. Həmin vaxt bir sıra digər yaşayış məskənləri ilə yanaşı, haqqında bəhs olunan kəndlərdən üçünün adı dəyişdirildi. Belə ki, Ermənistan SSR Ali Soveti rəyasət heyətinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Sultanbəy kəndinin adı Bartsruni, Qurdqulağın adı Boloraberd qoyuldu. Bu iş sonralar da davam etdirildi, Ali Sovetin 12 noyabr 1946-cı il tarixli qərarı ilə Almalının adı Xndzorut, 3 iyul 1968-ci il tarixli qərarla Horadizin adı Oradis qoyuldu.

Ümumiyyətlə, Ermənistan SSR Ali Sovetinin rəyasət heyəti 1935, 1938-1940, 1946-1950, 1957-1962, 1967-1969, 1977-1978, 1980-ci illərdə 17 dəfə yer adlarının dəyişdirilməsi ilə əlaqədar qərarlar qəbul etmiş, 1935-ci ilin yanvarından 1988-ci ilin avqustunadək Ermənistan ərazisində 521 türk mənşəli yaşayış məskənlərinin adı rəsmən dəyişdirilmişdir.

Qeyd etmək yerinə düşər ki, indiyədək, bütövlükdə, keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisində mövcud olan və adları XIX-XX əsrlərdə müxtəlif ölkələrdə yayımlanmış xəritələrdə, tarixi-coğrafi ədəbiyyatlarda, rəsmi sənədlərdə saxlanmış 15 min Azərbaycan mənşəli coğrafi ad “toponim soyqırımına” məruz qalmışdır. Addəyişmə əməliyyatı apararkən ermənilər bir neçə üsuldan, o cümlədən, ilk növbədə, türklərin soykökü, onların tarixi keçmişi ilə bağlı yer adlarının dəyişdirilməsi ilə (məsələn, Bayandur – Vağadur), ikincisi – yaşayış məskənlərinin adlarının ermənicəyə hərfi tərcümə edilməsi ilə (məsələn, Daşqala – Karaberd), üçüncüsü – bəzi yaşayış məskənlərinin adlarının sovet həyat tərzinə uyğun, beynəlmiləlçilik pərdəsi ilə (məsələn, Qaraqışlaq – Dostluq), dördüncüsü – yer adlarının cüzi dəyişikliklə, ona oxşar, lakin erməniləşdirilmiş adla əvəz edilməsi ilə (məsələn, Dərabbas – Darbas), beşincisi – “yuxarı”, “aşağı”, “böyük”, “kiçik” sözləri ilə başlanan türk mənşəli yaşayış məskənlərinin adlarında bu sözlərin erməncə verilməsi ilə (Verin Zağalı, Nerkin Zeyvə) və sair üsullardan istifadə etmişlər.

Həmçinin ermənilər 18 fevral 1929-cu ildən etibarən bu kəndlərdə yaşayan müsəlman-türk əhaliyə qarşı deportasiya siyasəti həyata keçirmiş, nəticədə, bu kəndlərin əhalisinin çox hissəsinin tədricən öz dədə-baba torpaqlarını tərk edərək Azərbaycana və keçmiş ittifaqın digər yerlərinə köçmələrinə nail olmuşlar. Erməni təqiblərinə, hədə-qorxularına baxmayaraq, bu kəndləri tərk etməyərək orada qalan sonuncu azərbaycanlılar isə 1988-ci ildə Dağlıq Qarabağ problemi ilə başlayan hadisələr zamanı öz yurd-yuvalarını tərk etməyə məcbur edilmişlər.

Tarixi qaynaqlar təkzibolunmaz şəkildə təsdiq edirlər ki, bu kəndlərin ərazisi tarixən Azərbaycana məxsus olmuş, həmişə onun ayrılmaz tərkib hissəsi Naxçıvan inzibati ərazi vahidinin tərkibində qərar tutmuşdur. Məsələn, osmanlıların 1590-cı ildə tərtib etdikləri “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə bunun aydın mənzərəsini görürük. Dəftərdən məlum olur ki, Sultanbəy, Ağxaç, Oğbin, İtqıran və Almalı kəndləri 1590-cı ildə Naxçıvan qəzasının Məvaziyi-Xatun nahiyəsinə daxil olmuşdur. Yaxud da osmanlıların 1724-cü ildə Naxçıvana gəldikdən sonra yaratdıqları yeni inzibati ərazi bölgüsünə əsasən bu kəndlərin hamısı “Naxçıvan sancağı”na daxil edilmişdir. Osmanlıların Naxçıvan bölgəsində apardıqları siyahıyaalma zamanı 1727-ci ildə tərtib etdikləri “Müfəssəl dəftər”dən aydın olur ki, həmin vaxt İtqıran, Oğbin, Almalı, Ağxaç və Sultanbəy kəndləri Məvaziyi-Xatun, Qarçıvan Azadciran, Xaçik və Horadiz Dərələyəz nahiyəsinə daxil olmuşlar. Bu kəndlərin əhalisi buğda, arpa əkmiş, arıçılıqla, meyvəçiliklə məşğul olmuş, müvafiq vergilər ödəmişlər.

Nadir şahın 1747-ci ildə qətlə yetirilməsindən sonra yaranan Naxçıvan xanlığının (1747-1828-ci illər) tərkibində olan, haqqında bəhs edilən bu kəndlər Naxçıvanın Rusiyaya birləşdirilməsindən sonra da onun tərkib hissəsi olmuşdur. Rusiya ilə birləşdirildikdən sonra əraziyə gələn rus məmurlarının yazdığı əsərlər və XIX yüzilliyə aid digər rusdilli qaynaqlar təsdiq edirlər ki, bu kəndlər həmin vaxtlar da Naxçıvan bölgəsinin tərkibində idi. Həmin kəndlərdən İtqıran, Oğbin və Sultanbəy Naxçıvan əyalətinin Məvaziyi-Xatun mahalına, Xaçik və Ağxaç Dərələyəz mahalına, Qarçıvan və Kilit Ordubad mahalına daxil edilmişdi. Həmin vaxt İtqıranda 157 nəfəri özündə birləşdirən 31 ailə, Oğbində 37 nəfər əhalidən ibarət 12 ailə yaşamışdır. Sultanbəy kəndinə isə həmin vaxt 66-sı kişi, 60-ı qadın olmaqla, 126 nəfər – cəmi 27 köçürmə erməni ailəsi yerləşdirilmişdi. İlhaq zamanı Ağxaç kəndində ancaq 23-ü kişi, 14-ü qadın olmaqla, 37 nəfər (6 ailə) müsəlman-türk yaşayırdı.

XIX yüzillik boyu daim Naxçıvanla bir yerdə olan bu kəndlər Azərbaycan Xalq Cümhuriyyətinin və 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək mövcud olan Araz-Türk Respublikasının tərkibində olsalar da, Ermənistanı himayə edən dövlətlər tərəfindən heç bir əsas olmadan “mübahisəli ərazilər” adlandırılan torpaqlara aid edilmişlər. Məhz buna görə də həmin vaxtlar, xüsusilə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra tərtib olunan xəritələrdə 1918-1920-ci illərdə Şərur-Dərələyəz və Naxçıvan qəzasının tərkibində olan bu kəndlərin ərazisi mübahisəli ərazilər kimi verilmişdir. Məsələn, 1924-cü ildə II dərəcəli zemlemer N.Rıbakov tərəfindən tərtib olunmuş “Karta Naxkraya” xəritəsində haqqında bəhs olunan kəndlər Naxçıvanın sərhədləri daxilində verilsə də, “Ermənistan SSR-lə mübahisəli ərazilər” kimi əks olunmuşdur. Göründüyü kimi, bu xəritədə bolşevik hökumətinin ermənilərə münasibəti özünü göstərmiş, tarixən Azərbaycana məxsus olmuş bu kəndlərin ərazisi mübahisəli ərazilər kimi verilmişdir. Bununla belə, N.Rıbakovun əsl reallığı görməsi və həmin kəndləri Naxçıvanın sərhədləri daxilində verməsi müsbət hal kimi qiymətləndirilməlidir.

*Ermənilər keçmiş sovet dönəmində də Azərbaycan torpaqlarını əldə etmək üçün çalışmış, hətta bir sıra ərazilərin Ermənistana verilməsi sahəsində ən yüksək səviyyədə qərarlar qəbul edilmişdi. Ancaq xalqımızın ümummilli lideri Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə həmin ərazilərin Ermənistana verilməsinin qarşısı alınmışdır.*

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

*Arxeoloq Osman Həbibullayevin 1951-1964-cü illərdə apardığı qazıntılar zamanı I Kültəpə yaşayış yerindən aşkar olunan və Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda saxlanılan arxeoloji materiallar Fransa arxeoloqu Remi Berthon və AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin hazırladığı layihə əsasında 2015-ci ildən tədqiq edilməyə başlanıb. Layihə 2017-ci ildə başa çatır. Tədqiqatların nəticələri ingilis dilində üç kitab halında nəşr ediləcək.*

# I Kültəpə yaşayış yeri ilə bağlı tədqiqatların nəticələri ingilis dilində nəşr olunacaq

Layihənin Azərbaycan tərəfdən rəhbəri Vəli Baxşəliyev bildirib ki, bu, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın həm tarixinin öyrənilməsində, həm də təbliğində əhəmiyyətli rol oynayacaq. Onun sözlərinə görə, bu il tədqiqatlarda Fransa tərəfdən Catherine Marro, Nicilas Gailhard, Marie Orange və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Fizzə Quliyeva iştirak edirlər. Tədqiqatlarda yaşayış yerindən tapılan minlərlə keramika, daş, sümük, metal və obsidiandan hazırlanmış arxeoloji materialların fotosu, qrafik rəsmi, metal və obsidianların isə kimyəvi tərkibi analiz olunur.

Qeyd edək ki, AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə 2013-cü ildən I Kültəpə yaşayış yerində arxeoloji tədqiqatlara başlayıb. Artıq tədqiqatlar başa çatıb. Əsas məqsəd yaşayış yerində məskunlaşma tarixini dəqiqləşdirməkdən ibarət olub. Arxeoloji tədqiqat işləri ilə bərabər, ekspedisiyanın üzvləri qədim mədən yerlərini və köçmə maldarlıqla bağlı yaşayış yerlərini, köç yollarının istiqamətlərini araşdırıb.

Araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir və burada insanlar eradan əvvəl VII minilliyin ortalarında məskunlaşıblar. Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzinin də Naxçıvan olub-olmadığını müəyyənləşdirmək üçün müəyyən işlər görülməkdədir. İlk tədqiqatlar Naxçıvandakı mis yataqlarının insanlar tərəfindən istifadə olunduğunu təsdiq edir. Mis, qurğuşun alətlərin mis yataqları ilə qarşılıqlı analizi Naxçıvanın qədim metallurgiyasının yerli xammala əsaslandığını deməyə əsas verir. ABŞ və Fransa alimlərinin naxçıvanlı elm adamları ilə birlikdə Naxçıvanda apardığı arxeoloji tədqiqatlar təkcə tariximizin öyrənilməsi baxımından deyil, həm də qədim tariximizin dünyada təbliği baxımından böyük əhəmiyyət daşıyır.

**Xəbərlər şöbəsi**

# Mərkəzi elmi kitabxanada sərgi təşkil olunub



AMEA Naxçıvan Bölməsinin Mərkəzi elmi kitabxanasında sərgi təşkil olunub. Xocalı faciəsinin 25-ci ildönümünə həsr edilən sərgidə “Tarixi həqiqətin soyqırımı”, Azərbaycan və rus dillərində “Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri”, Azərbaycan, rus və ingilis dillərində “Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri”, “Xocalı soyqırımı” (sənədlər, faktlarda və xarici mətbuatda), “Türkün Xocalı soyqırımı”, “Erməni terroru”, “Ermənilər və həqiqətlər: rəsmi sənədlərdə”, “Qarabağ həqiqətləri”, “Qarabağ düyünü”, “Qarabağ harayı” və digər kitablar nümayiş etdirilir.

Bir neçə bölmədən ibarət olan sərgidə həmçinin türk, rus və ingilis dillərində çap olunan kitablar da nümayiş olunur.

Öz faciəviliyinə görə dünyada analoqu olmayan Xocalı hadisəsini əks etdirən sərgi fevral ayının sonunadək davam etdiriləcək.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

# Yeni yaradılan idman bölmələrinə maraq gündən-günə artmaqdadır

***Uşaq və yeniyetmələrin fiziki tərbiyəsində, onların ayrı-ayrı idman növlərinin sirlərinə dərindən yiyələnməsində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman bölmələrinin rolu böyükdür. Ayrı-ayrı idman növləri üzrə gözəçarpan nailiyyətlər əldə edən idmançılarımızın əksəriyyəti məhz həmin idman bölmələrində yetişiblər. Bu gün inamla demək olar ki, muxtar respublikanın şəhər və rayonlarında uşaq və yeniyetmələrin idmanla məşğul olmaları üçün baza, infrastruktur yaradılıb. Bu ilin yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr"lə bağlı keçirilən müşavirədə verilmiş tapşırıqlara əsasən Naxçıvanda yeni idman bölmələri fəaliyyətə başlayıb. Bunlar qızlar üçün həndbol, bədii gimnastika və üzgüçülük bölmələridir.***





Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaratdığı hər üç bölmə Şərur rayonunda fəaliyyət göstərir. Daha çox məktəbli qızların cəlb edildiyi həndbol bölməsi ilə 3 məşqçi-müəllim – Xanım Əhmədova, Esmira Vəliyeva və Rüxsarə Nəcəfova məşğul olur. Hər bölmədə 12 idmançı yer alıb və məşqlər müxtəlif məkanlarda keçirilir. Şərur şəhər 1 nömrəli tam orta məktəbin idman zalında qızlara həndbolun sirlərini öyrədən Xanım Əhmədova bizimlə söhbətində bildirdi ki, bu gün muxtar respublikada hər bir idman növünün inkişafı üçün şərait yaradılıb. Bunlar arasında həndbol Azərbaycanda böyük ənənəsi olan idman növlərindən biridir. Keçmiş SSRİ dönəmində Azərbaycan həndbol komandaları dünyanın ən güclü komandalarından hesab edilirdi və idmançılarımızın bəziləri yığmanın heyətində olimpiya çempionu olublar. Naxçıvanda da bu ənənələri davam etdirmək üçün imkan yaradılıb. Məqsədimiz məktəblərdə həndbol idman növünü təbliğ etmək, yeniyetmə və gənc qızları idmana cəlb etməkdir.

Şərur şəhər 2 nömrəli tam orta məktəbdə həndbolçularla Esmira Vəliyeva məşğul olur. Məşqçi-müəllimin əsas məqsədi qısa vaxt ərzində tam heyət formalaşdırmaq və yarışlarda iştirak etməkdir. Həndbola maraq göstərən qızlar üçün məşq avadanlıqları alınıb, şərait yaradılıb. Esmira Vəliyeva qeyd etdi ki, biz də, öz növbəmizdə, yaradılan şəraitdən maksimum yararlanmağa çalışırıq. Komandamız müəyyən vaxtdan sonra yarışlarda iştirak edib uğur qazana bilər.

Rüxsarə Nəcəfova isə Yengicə kənd tam orta məktəbində məşqləri davam etdirir. Məşqçi-müəllimin fikrincə, idman bölmələrinin kəndlərdə fəaliyyətə başlaması daha çox gənc qızların sevincinə səbəb olub. Onun sözlərinə görə, hazırda məşqlərdə 15-ə yaxın qız idmançı iştirak edir. Onların həvəslə məşq proseslərində iştirak etmələri məşqçi kimi onu sevindirir.

Bədii gimnastika bölmələrində təlim-məşq saatlarının 70 faizi musiqi ilə keçirilir. Şərur rayonunda yeni fəaliyyətə başlayan bədii gimnastika bölməsinin məşqində bunun bir daha şahidi olduq. Hazırda bölmədə 20-dən çox qız bu növün sirlərini öyrənir. Müvəqqəti olaraq həftədə iki dəfə məşqlərdə iştirak edən qızlara məşqçi-müəllim, idman ustası Humay Qafarova bədii gimnastikanın sirlərini öyrədir. Yeni yaradılmış bölmənin müəllimi Sevinc Nəcəfova isə hazırda Bakıda məşqçi kursunda iştirak edir və onun gəlişindən sonra məşqlərin həftəlik saatları da artırılacaqdır.

"Xatun" bədii gimnastika bölməsinin məşqçi-müəllimi Humay Qafarova bizimlə söhbətində vurğuladı ki, Gənclər və İdman Nazirliyi uşaq və yeniyetmə idmançıların ilboyu tədris məşğələlərinin, qış və yay tətili dövründə isə fəal istirahətinin təmin edilməsi üçün sağlamlıq idman düşərgələrinin təşkili, idman bölmələrinin fəaliyyəti yönündə mühüm addımlar atır. Bu bölmələrdə müəyyən olunmuş qaydada məşqlər keçirilir. Elə Şərur rayonunda da fəaliyyətə başlayan bədii gimnastika bölməsində məşqlər plana uyğun şəkildə aparılır. Məqsəd uşaqları bu bölmələrə cəlb etmək, onların sağlamlığını təmin edə biləcək dərəcədə məşq aparmaq və bədii gimnastikanın nə qədər faydalı bir idman növü olduğunu aşılamaqdır. Ümumiyyətlə, rayonlarda bölmələrin fəaliyyəti idman növünün geniş yayılmasına, istedadlı uşaqların üzə çıxmasına imkan yaradır. Həmçinin bölmələrdə daha bacarıqlı uşaqları seçir, onlarla fərdi şəkildə məşğul olur, onları yarışlara, turnirlərə hazırlayırıq.

"Üzgüçülük elə bir idman növüdür ki, onunla məşğul olmağın yaşı yoxdur". Bu sözləri bizimlə söhbətində Şərur Olimpiya-İdman Kompleksinin üzgüçülük mərkəzinin məşqçi-müəllimi Türkanə Gözəlova dedi. Hazırda 50-dən çox qızın qeydiyyatdan keçdiyini vurğulayan məşqçi-müəllim bu sayın yay aylarında daha çox olacağını bildirdi: "Naxçıvanda ən mötəbər yarışlar yüksək səviyyədə keçirilir. Əlbəttə ki, bu cür mötəbər idman tədbirlərinin təşkil olunduğu bir regionda müxtəlif idman təşkilatlarının, federasiyaların, idman bölmələrinin, idmançıların üzərinə böyük məsuliyyət düşür. Bir idman bölməsi kimi bizim də məqsədimiz təmsilçilərimizin bu yarışlarda çıxış etmələrinə nail olmaqdır. İdman ailəsinə daxil olan bölmə kimi qarşımızda dayanan əsas məqsəd bu sahəyə öz layiqli töhfəmizi verməkdir".

Şərur rayonunda eyni zamanda qadınlar üçün trenajor məşqləri də təşkil olunur. Məşqlər isə məşqçi-müəllim Günay Əhmədovanın rəhbərliyi altında həyata keçirilir.

Ümumiyyətlə, Şərur rayonunda bölmələrin fəaliyyətilə tanış olarkən bir məqam xüsusilə diqqətimizi cəlb etdi. Burada idman üzrə məşqçi-müəllimlər dərs prosesi vaxtı uşaqların təhlükəsizliyinə və sağlamlığına cavabdeh olur, onlar qrupların komplektləşdirilməsinə, şagirdlərlə tərbiyə və təlim-məşq işlərinin aparılmasına, dərs proqramlarının yerinə yetirilməsinə böyük məsuliyyətlə yanaşırdılar. Məşqçi-müəllimlər bölmələrində məşğul olan idmançıların vaxtında tibbi müayinədən keçməsinə xüsusi nəzarət edir, ümumi və xüsusi fiziki, texniki və idman hazırlığının müntəzəm qeydiyyatını aparırdılar. Nazirlik həmçinin onların öz ixtisaslarını artırmalarına, təmsil etdikləri növlər üzrə seminarların təşkil edilməsinə, idmançıların yarışlarda nümunəvi çıxışlarına, təlim-məşq prosesinin təkmilləşməsi üzrə təkliflər işləyib hazırlanmasına da diqqət yetirir.

**Ceyhun MƏMMƏDOV**

# Mətbəximizdə dulusçuluq nümunələrinə üstünlük versək, daha sağlam olarıq

***Azərbaycan qədim tarixə və mədəniyyətə malik olan ölkədir. Respublikamızın hər bir bölgəsinə xas olan yüksək mətbəx mədəniyyəti bunun bariz nümunəsidir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası da özünəməxsus mətbəxi ilə fərqlənir. Arxeoloji qazıntılar zamanı muxtar respublika ərazisində aşkar olunmuş gil ocaq qurğusu, kələkötür divarlı qazan, çölməktipli qab qırıntıları, keramika məmulatları, dulusçuluq nümunələri və bu gün mətbəximizdə işlədilən avadanlıqlar Naxçıvanın mətbəx mədəniyyəti tarixinin çox qədimlərə dayandığını sübut edir.***



Naxçıvan diyarının mətbəx mədəniyyətində bu bölgəyə xas olan yeməklər nənələrimizin yaradıcılıq dünyasının genişliyindən xəbər verir. Qədim diyarımızın mətbəx mədəniyyətində rəngarənglik, müxtəlif əşyaların işlənməsi, qida məhsullarının çoxluğu min illər boyu formalaşmış zəngin irsin böyük inkişaf yolu keçdiyinin, qorunaraq, yad təsirlərə müqavimət göstərərək bu günə gəlib çatdığının sübutudur. Ləziz mətbəx nümunələrinə qonaqpərvərlik, qonağa ehtiram duyğularının da əlavə olunması isə insanlarımızın mənəvi zənginliyinin göstəricisidir.

Heç kəsə sirr deyil ki, yeməyin dadlı və ləziz olması üçün vacib olan amillərdən biri onun hansı qabda hazırlanmasıdır. Bu həqiqəti qəbul edən insanlar bu gün saxsı qablardan istifadəyə üstünlük verirlər. Ötən günlərdə Naxçıvan şəhər sakini, 75 yaşlı Ruqiyyə Rzayevanın evinə qonaq gedərkən də bunun şahidi oldum. Həyətə daxil olarkən hazırlanan yeməyin ətri məni valeh etdi. Ruqiyyə nənədən yeməyin bu qədər ətirli olmasının səbəbini soruşduqda o, bunu belə izah etdi ki, həmişə ət yeməklərini saxsı çölməkdə hazırlayır və buna görə də bu qədər ətirli, dadlı olur. O, süfrə açaraq məni yeməyə dəvət etdi. Etiraf edim ki, bu günə qədər belə dadlı yemək yeməmişdim. Söhbət əsnasında Ruqiyyə nənə dedi ki, bir vaxtlar bu saxsı qablara ət qovurması, pendir, süd, qaymaq, yağ, bal yığar, qışlıq ərzağı saxlayardılar. Bu qabların üstün cəhətlərindən biri də budur ki, saxlanılan yemək uzun müddət öz keyfiyyətini itirmir. Qablar gildən hazırlandığı üçün mayeni sərin saxlayır.

Mütəxəssislərin dediyinə görə, bu gün mətbəximizi bəzəyən müxtəlif metallardan olan məişət əşyaları sağlamlığımıza təhlükə yaradır. Dünya alimləri aparılan tədqiqatlar nəticəsində müəyyən ediblər ki, bu gün yeməklərin hazırlanmasında geniş istifadə etdiyimiz alüminium qabların tərkibində orqanizmə mənfi təsir göstərən metal qarışıqlar var. Təbii ki, bunlardan istifadə insan sağlamlığına ziyan verə bilər. Alüminium qabların tərkibində təhlükəli maddələr, qurğuşun da ola bilər. Bunlar isə yeməyə qarışaraq orqanizmimizə daxil olur. Onun təsirini vaxt keçdikcə hiss edirik. Belə ki, alüminium məişət əşyaları istifadə edən insanlarda ürək-damar patologiyası yaranır. Tibbi cəhətdən araşdırdıqda aydın olur ki, saxsı qablar günümüzdə daha çox yayılan xəstəliklərin, xüsusilə də şəkər xəstəliyinin qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir.

İndi bir çoxlarımızın evini, mətbəxini xarici ölkələrin istehsalı olan məişət əşyaları bəzəyir. Ancaq təəssüflər olsun ki, nədənsə evlərimizdə saxsı məişət əşyalarından istifadə etmirik. Halbuki öz insanlarımızın əl əməyinin, göz nurunun məhsulu olan saxsı əşyalardan istifadə bizə daha çox fayda verə bilər.

Bu gün muzeylərimizi saxsıdan hazırlanan maddi-mədəniyyət nümunələri bəzəyir. Muxtar respublikada milli dəyərlərimizə, el sənətlərinə göstərilən diqqət və qayğının nəticəsidir ki, dulusçuluq emalatxanaları yaradılır, bu emalatxanalarda hazırlanan məhsullar mətbəxlərimizə yol tapır, hədiyyəlik əşya kimi turistlər tərəfindən müxtəlif ölkələrə aparılır.

Bəli, bu sənət incilərinə mətbəximizdə daha geniş yer verməklə qədim sənəti yaşadıb gələcək nəsillərə ötürə, sağlamlığımızı qoruya bilərik.

**Nail ƏSGƏROV**

# Metodik kurs keçirilib

***Şərur şəhərindəki Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbində rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan uşaq musiqi və incəsənət məktəblərinin müəllimləri üçün musiqi ədəbiyyatı fənni üzrə metodik kurs keçirilib.***

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının aparıcı məsləhətçisi Leyla Əlimərdanova bildirib ki, uşaq musiqi məktəblərində musiqi ədəbiyyatı fənninin tədrisində əsas məqsəd şagirdlərin bu sahə üzrə dünyagörüşünü zənginləşdirməkdir. Şagirdlərin Azərbaycan musiqi ədəbiyyatı ilə dərindən tanışlığı onların musiqi tərbiyəsinin formalaşmasında və hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Metodik kursların keçirilməsində məqsəd müəllimlərin bilik səviyyəsinin yüksəldilməsidir.

Şagirdlərə tədris olunan musiqi ədəbiyyatı fənninin proqramı haqqında ətraflı məlumat verildikdən sonra Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Nuray Hüseynova "Yeddi və beşillik təhsil sistemi üzrə musiqi ədəbiyyatı fənninin tədrisi" mövzusunda metodik dərs keçib. Bildirilib ki, musiqi məktəblərində şagirdlər musiqi ədəbiyyatının geniş sahəsilə tanış olur, müxtəlif janr və xüsusiyyətləri, xalq və professional musiqi formaları, musiqi ifadə vasitələri, musiqi alətləri, simfonik orkestr, ansambl quruluşları haqqında biliklər əldə edirlər.

Qeyd olunub ki, ümumi musiqi ədəbiyyatı fənninin tədrisində bəstəkarların həyat və yaradıcılığı, onların dünya musiqi tarixində rolu və əhəmiyyəti, eləcə də tutduğu mövqe haqqında ətraflı məlumat verilir. Musiqi ədəbiyyatı fənninin tədrisində xüsusi yeri musiqi materialları tutur. Dərs zamanı şagirdlər mahnı janrından başlayaraq irihəcmli əsərlərə qədər məlumatlandırılır. Musiqi ədəbiyyatı fənninin özünəməxsus inkişaf yoluna görə musiqi formaları, silsilələrin tərkibi dəyişir. Musiqi ədəbiyyatının tədrisində klassik musiqi ilə yanaşı, xalq musiqisinin öyrənilməsinə də diqqət yetirmək vacibdir.

Sonra müəllimlərlə mövzu ətrafında söhbət aparılıb və onların sualları cavablandırılıb.

**Əli RZAYEV**


## İtmişdir

Babək rayonunun Cəhri kənd sakini Məmmədov Nadir Məmməd oğlunun adına olan $2328^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Dünyamalıyeva Aysel Məmməd qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Hacıyev Abbas Sultan oğlunun adına verilmiş 104013003662 reyestr nömrəli çıxarış və A-001631 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Şahtaxtı kənd sakini Fərəcov Qadir Əhməd oğlunun adına olan $44^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 135